**1.Referendumun keçrilməsi ilə əlaqədar *uyğun olmayan* variantı müəyyən edin:**
A) SSRİ-nin saxlanılması ilə əlaqədar - 1991-ci il 17 mart
B) Azərbaycan Respublikasının dövlət müstəqilliyi ilə əlaqədar - 1991-ci il 29 dekabr
C) Prezident Ə.Elçibəyə etimad göstərilməsi ilə əlaqədar -1993-cü il 29 avqust
D) "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası " ilə əlaqədar - 1991-ci il 30 avqust
E) Azərbaycan Respublikası Konstitusiyasının qəbulu ilə əlaqədar - 1995-ci il 12 noyabr

İzah:

***Test*** 11-ci sinif Müasir Azərbaycan tarixi ilə bağlıdır. Bu sualda XX əsr Azərbaycan tarixi ilə bağlı mühüm hadisələr öz əksini tapıb.Bu hadisələrdən **A,B,C** və **E** variantlarında qoyuımuş hadisələr referendum vasitəsilə, yəni xalqın rəyi nəzərə alınmaqla **D** variantı isə dövlətin qəbul etdiyi qərarla qəbul edilmişdir. Doğru cavab **D** variantıdır.

**2. Rus çarı Mixail Romanovun fəaliyyət dövrü üçün xarakterik olmayan xüsusiyyətləri müəyyən edin:**
**1.**Reç Pospolita ilə barışıq sazişinin imzalanması
**2.**"Məclis Qanunnaməsi"nin qəbul edilməsi
**3.**Pskovun Moskvaya birləşdirilməsi
**4.**Təhkimçilik sisteminin əsasının qoyulması
**5.**Rusiyanın yeni sülalə tərəfindən idarə olunmağa başlanması
A) 1,3,4 B) 2,3,4 C) 1,2,4 D) 2,4,5 E) 1,2,5

**İzah:**

***Test*** 8-ci sinif Orta Əsrlər tarixi səkkizinci sinif Şərqi Avropa xalqları mövzusunda Rusiya ilə bağlıdır. Bu sualda Mixail Romanovun (1613-1645-ci illər) fəaliyyəti ilə bağlı olmayan məlumatlar soruşulur. **1.** 1618-ci il **2.**1649-cu il **3.**1510-cu il **4.**1497-ci il **5.**1613-cü il.Bu hadisələrə nəzər yetrildikdə **2,3** və **4** -cü hadisələr onun fəaliyyəti ilə bağlı deyildir. Cavab **B** variantıdır.

**3. Xronoloji ardıcıllığı müəyyən edin:**
**1.**Fransada iri burjuaziyanın hərbi diktaturasının yaradılması
**2.** İngiltərədə məhdud parlamentli monarxiya rejiminin təsbit olunması
**3.**ABŞ-da Məhkəmənin qərarı olmadan özbaşına həbslərin qadağan edilməsi
A) 3,2,1 B) 1,3,2 C) 2,3,1 D)1,2,3
E) 2,1,3

İzah:

***Test*** 9-cu sinif Yeni tarixlə bağlı xronoloji ardıcıllıq tipinə aid sualdır. Bu sualda verilmiş hadisələrdən **I.**1799-cu il **II.**1689-cu il **III.**1791-ci ilə aid hadisələrdir. Bu hadisələri xronoloji ardıcıllıqla düzdükdə cavab **C** variantıdır.

**4. E.ə III minilliyin axırı və e.ə II minilliyın əvvəllərinə *aid olanları* müəyyən edin:**
**a.** İnsanların təbiətin asılılığından azad olmağa başlaması
**b.** Sənətkarlığın başqa istehsal sahələrindən ayrılması
**c.** Ayaqla hərəkətə gətirilən dulus çarxından istifadə olunması
**d.** Urmiya sahilində şəhər tipli yaşayış məskəninin yaranması
A)a,c B)b,d C)a,b D)b,c E)a,d

**İzah:**

***Test*** 6-cı sinif Azərbaycan tarixinin İbtidai İcma quruluşu mövzusuna aiddir. Sualda Orta Tunc dövrünə aid hadisələr soruşulur.
**a.**Mezolit dövrünə **b.** Orta Tunc dövrünə **c.**Son Tunc dövrünə **d.** Orta Tunc dövrünə aid hadisələrdir.Cavab **B** variantıdır.

**5. Avropa İttifaqı yaranan ildə:**
A) Avro tədavülə buraxıldı

HƏDƏF KURSLARI

B) Avropa Şurası yarandı
C) Sosializm quruculuğunun "Çin modeli" konsepsiyası təsdiq edildi
D) Orta və yaxınmənzilli raketlərin ləğv olunmasına dair saziş imzalandı
E) SSRİ dağıldı

**İzah:**

***Test*** 11-ci sinif Ən Yeni tarixlə bağlı müasir dövrün mühüm hadisələri verilib. Burada 1991-ci ildə baş vermiş hadisə soruşulur.
A) 1999-cu ildə B) 1949-cu ildə C) 1992-ci ildə D) 1987-ci ildə E) 1991-ci ildə baş vermişdir. Cavab **E** variantıdır.

**6. XX əsrin əvvəlləri İngiltərə tarixi üçün xarakterik olan əlamətlər:**
**1.**Hökümət başçısının hüquqları genişləndirildi
**2.** Fəhlələrin yuxarı təbəqələri səs hüququ aldı
**3.**Sənaye burjuaziyası hakimiyyətdə təmsil olunmağa başladı
**4.**Fəhlələrin tətil hüququ təsdiq edildi
A)1,3 B)2,4 C)1,2 D)2,3 E)1,4

**İzah:**

***Test*** 10-cu sinif Yeni tarixlə bağlı İngiltərənin XX əsrin əvvəlinə aid hadisələr soruşulur. **I.** XX əsrin əvvəlinə **II.** 1867-ci ildə **III.**1832-ci ildə **IV.** XX əsrin əvvəlinə aiddir. Cavab **E** variantıdır.

**7. Quba xanı Şeyxəli xana *aid olanları* müəyyən edin:**
**1.** Rusiya ilə mübarizədə qalib gəlib Dərbəndi yenidən Qubaya birləşdirməsi
**2.** Rusiya ilə müqavilə imzalaması
**3.**XVIII əsrin sonunda rusları məğlub etməsi
**4.** Ağa Məhəmməd şah Qacarın ikinci yürüşü zamanı Bakı xanlığını da idarə etməsi
A) 1,3 B) 2,4 C) 2,3 D) 1,4 E)3,4

**İzah:**

***Test*** 9-cu sinifin Azərbaycan Tarixi ilə bağlıdır. Sualda Qubalı Şeyxəli xanın (1791-1810-cu illər) fəaliyyəti ilə bağlı düzgün fikirlər soruşulur. Düzgün fikirlər **II** və **III** fikirlər olduğu üçün cavab **C** variantıdır.

**8. E.ə V əsr Yunanıstan üçün xarakterikdir:**
A) Strateqlər seçilməyə başlandı
B) Xalq Tribunları seçilməyə başlandı
C) Borca görə qul edilən afinalılar azad edildi
D) İlk quldar dövlətlər yarandı
E) Əhəmənilərlə döyüşdə məğlub oldu

**İzah:**

***Test*** 6-cı sinif Qədim Dünya tarixi ilə bağlı Yunanıstan mövzusuna aiddir. A) E.ə. VI əsrin sonu B) E.ə. V əsr Romayla bağlı hadisədir C) E.ə. VI əsrin əvvəli D) E.ə. VIII əsr E) E.ə. V əsrə aid hadisələrdir. Cavab **E** variantıdır.

**9. Hansı təşkilatın məqsədləridir:**
**1.**Mühüm vəzifələrə Azərbaycanlıları gətirmək
**2.**Milli oyanışa xidmət etmək
A) Əbülfəz Elçibəyin başçılıq etdiyi təşkilatın
B) "Azərbaycan İstiqlal Komitəsi"nin
C) "İldırım" təşkilatının
D) "Azərbaycan Kültür dərnəyi" nin
E) "Milli Azərbaycan Qərərgahı" nın

**İzah:**

***Test*** 11-ci sinif Azərbaycan tarixi ilə bağlıdır. Sualda Azərbaycan tarixində mühüm rolu olan təşkilatların qarşıya qoyduğu məqsədlər soruşulur. Verilən məqsədlər 1962-ci ildə yaranmış " Milli Azərbaycan Qərargahı"nın məqsədləridir. Cavab **E** variantıdır.

HƏDƏF KURSLARI

**10.Daha əvvəl olmuşdur:**
A) İkinci Dünya müharibəsində Böyük Britaniyanın Yaponiyaya müharibə elan etməsi
B) Almaniya ilə Fransanın tarixi barışmasının baş verməsi
C) SSRİ ilə Yaponiya arasında diplomatik əlaqələrin bərpa edilməsi
D) İtaliyada proporsional seçki qaydasının tətbiq edilməsi
E) Altı günlük müharibədə Ərəb dövlətlərinin məğlub olması

**İzah:**

***Test*** 11-ci sinif Ən Yeni tarixə aid hadsələrin baş vermə illərinə görə daha tez olanı soruşulur. A) 1941-ci il B)1957-ci il C) 1956-cı il D) 1948-ci il E) 1967-ci ildə baş vermiş hadisələrdir. Bu hadisələrdən **A** variantında verilmiş hadisə daha əvvəl olub.

**11.Uyğunluq pozulub:**
A) E.ə. I əsrin ikinci yarısında Atropatena və Albaniya dövlətləri Romanın hücumuna məruz qalmışdı
B) Qərbi Hun dövləti və Qaraqoyunlu dövləti qalibiyyətli müharibə nəticəsində yaranmışdı
C) Sacilər və Hülakülər dövlətinin ilk paytaxtı Marağa şəhəri olmuşdu
D) XI əsrdə Kordovo xilafəti və Qaraxanlı dövləti parçalandı
E) Ağqoyunlu və Səfəvi dövlətləri Osmanlılarla ilk toquşmada qalib gəldilər

**İzah:**

**Testdə** uyğun olmayan fikir soruşulur. **A. B. C. D.** variantlarında verilən fikirlər doğru. **E** variantında verilən fikir isə yalışdır. Ağqoyunlu dövləti Osmanlı dövləti ilə 1472-ci ildə Beyşehir döyüşündə məğlub olub.Səfəvi dövləti 1514-cü ildə Çaldıran döyüşündə Osmalılara məğlub olub. Cavab **E** variantıdır.

**12. Daha sonra olmuşdur:**
A) Təbrizin ilk dəfə paytaxt olması
B) Albaniyanın daxili müstəqilliyinin ləğv edilməsi
C) Məzyədilərin iqamətgahı Şirvana köçürməsi
D) Dəbilin Şəddadilər dövlətinə birləşdirilməsi
E) Xəzər dənizində Azərbaycanın ticarət gəmilərinin üzməyə başlaması

**İzah:**

***Test*** 7-ci sinifin Azərbaycan tarixi ilə bağlıdır. A) 981-ci il B) 705-ci il C) IX əsrin sonu D) 985-1030-cu ildə hakimiyyətdə lan Fəzl ibn Məhəmmədə aiddir E) 941-981-ci illərdə mövcud olan Salarilər dövlətinə aiddir.Daha sonra olan hadisə **D** variantıdır.

**13.Azərbaycan torpaqlarının işğalının birinci mərhələsində rusiyapərəst bəylərdən ibarət *müvəqqəti idarə* yaradılmışdı:**
A) Təbriz xanlığında
B) Qarabağ xanlığında
C) Şəki xanlığında
D) Quba xanlığında
E) Gəncə xanlığında

**İzah:**

***Test*** 9-cu sinif Azərbaycan tarixinə aiddir. Sualda Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsinin birinci 1801-ci ildən 1813-cü ilə qədərki dövründən gedir. Rusiya işğaldan sonra 1806-cı ildə Şəkidə, 1827-ci ildə Təbrizdə ***müvəqqəti idarə*** üsulu yaradıb. Cavab **C** variantıdır.

**14.Azərbaycanda Ərəblər dövrünə *aid deyil*:**
**1.** Verginin torpağın sahəsinə görə alınması
**2.** Xaricilər hərəkatının baş verməsi
**3.** Rəvvadilərin müstəqil əmirlik yaratması

HƏDƏF KURSLARI

**4.** Bütün hərbi və mülki hakimiyyətin amilin əlində cəmlənməsi

A) 1,3 B) 2,4 C) 1,2 D) 2,3 E) 1,4

**İzah:**

***Test*** 7-ci sinif Azərbaycan tarixi ilə bağlıdır. **I** və **III** fikirlər Azərbaycanda Ərəb dövrünə aiddir. **II** fikir Ərəblərə aid olsada Azərbaycana aid deyil. **IV** fikir isə yanlışdır çünki hərbi və mülki hakimiyyət əmirin əlində cəmləşmişdir.Cavab **B** variantıdır.

**15. XX əsrin 60-cı illərdə Azərbaycan SSR-da həyata keçirilmiş sosial-iqtisadi tədbirlərə *aiddir:***

**1.** Neftmaşınqayırma sahəsində Azərbaycan ABŞ-dan sonra dünyada ikinci yeri tutması
**2.** Pul islahatının keçirilməsi
**3.** Bakı metrosunun ilk stansiyasının işə salınması
**4.** Məcburi onillik təhsilin tətbiq edilməsi

A) 1, 3 B) 2, 3 C) 3, 4 D) 1, 2 E) 2, 4

**İzah:**

***Test*** 11-ci sinif Azərbaycan tarixinə aiddir. **I.**1990-cı ilin əvvəlinə **II.**1961-ci il **III.**1967-ci il **IV.** 1966-cı ilə aid hadisələrdir. Verilmiş hadisələrdən **II,III,IV** fikirlər XX əsri 60-cı illərinə aid olsada **IV**-fikir sosial-iqtisadi tədbir yox mədəni tədbirdir. Cavab **B** variantıdır.

**16. Göstərilənlər aiddir:**

**1.** *Qanunsuz həbslər qadağan olunurdu*
**2.** *Silki imtiyazlar və mütləqiyyət rədd olunurdu*
**3.** *Mülkiyyət toxunulmaz və müqəddəs hesab olunurdu*

A) 1789-cu il "İnsan və Vətəndaş hüquqları Bəyannaməsi"nə
B) 1793-cü il Fransada Yakobin konstitusiyasına
C) 1689-cu il İngiltərədə qəbul edilmiş "Hüquqlar haqqında Bill"ə
D) 1776-cı il ABŞ-ın "İstiqlaliyyət Bəyannaməsi"nə
E) 1799-cu il Fransada qəbul edilmiş Konstitusiyaya

**İzah:**

***Test*** 9-cu sinif Yeni tarixə aiddir.Burada göstərilmiş sənədlərin hər birinin müxtəlif istək və tələbləri var.Verilən fikirlər 1789-cu il Fransada qəbul edilmiş "İnsan və Vətəndaş hüquqları Bəyannaməsi"nə aiddir. Cavab A variantıdır.

**17. *Ağdərə əməliyyatı* nəticəsində işğal edilmiş əraziləri azad edildi:**




A)2 B) 3 C)4 D)5 E)1

**İzah:**

***Test*** Ermənistan tərəfindən işğal olunmuş rayonlarla bağlıdır. Ağdərə əməliyyatı 1992-ci ildə həyata keçrilmiş nəticədə Goranboyun işğal edilmiş rayonları geri qaytarılmışdır. Goranboy xəritədə **1** rəqəmi ilə qeyd edilmişdir. Cavab **E** variantıdır.

HƏDƏF KURSLARI

**18. Azərbaycan Respublikasının Konstitusiyasına görə Azərbaycan Respublikası Prezidentinin istefa ərizəsi təqdim olunur:**
A) Azərbaycan Respublikasının Milli Məclisinə
B) Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinə
C) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə
D) Azərbaycan Respublikasının Nazirlər Kabinetinə
E) Azərbaycan Respublikasının Ali Məhkəməsinə

**İzah:**

***Test*** Azərbaycan Respublikasının Konstitusiyasında İcraedici hakimiyyətlə bağlıdır.İcraedici hakimiyyətin başında duran Prezident istefa ərizəsini Konstitusiya Məhkəməsinə təqdim edir. Cavab **C** variantıdır.

**19.Eyni ilə *aid olanları* müəyyən edin:**
**1.** Yuxarı Zəngəzurun Ermənistana birləşdirilmsi
**2.** Şərur - Dərələyəzin qeyd-şərtsiz Ermənistana birləşdirilməsi
**3.** Azərbaycan Kommunist Partiyasının yaranması
**4.** Azərbaycanda ilk rəssamlıq studiyasının yaranması
A) 3,4 B) 1,4 C) 1,2 D) 2,4 E) 2,3

**İzah:**

***Test*** 11-ci sinif Azərbaycan tarixinə aiddir. **I.**1921-ci il **II.** 1920-ci il **III.**1920-ci il **IV.**1919-cu ilə aid hadisələr verilmişdir. Eyni ilə aid hadisələr **II** və **III** hadisələrdir. Cavab **E** variantıdır.

**20. XVIII əsrin 50-ci illərinin sonu üçün xarakteriktir:**
A) Hacı Çələbinin Şirvana uğursuz yürüşü
B) Dərbənd xanlığının siyasi müstəqilliyini itirməsi
C) Qarabağda Şahbulaq qalasının tikilməsi
D) Fətəli xan Əfşarın öz hakimiyyətini mərkəzi və cənubi İranda yayması
E) Gəncə xanlığına hücum edən rus və gürcülərin hücumunun qarşısının Dağıstan hakimlərinin köməyi ilə alınması

**İzah:**

***Test*** 9-cu sinif Azərbaycan tarixinə aiddir.
A) 1755-ci il B) 1759-cu il C)1751-ci il D) 1753-cü il E) 1784-cü ilə aid hadisələrdir. Cavab **B** variantıdır.

**21. *Səhv* variantları müəyyən edin:**
**1.**Qara Yusif - yeni dövlətin və sülalənin əsasının qoyulması
**2.**Uzun Həsən - XV əsrin 50-ci illərində Gürcüstanın şərq hissəsini tutması
**3.**I Şah İsmayıl - Şirvanşah qoşunlarını məğlub etməsi
**4.** Şirvanşah III Fəribürz **-** Hakimiyyətinin ordu və xalq tərəfindən müdafiə edilməsi
**5.** Qazan xan - şəhər tacirlərini vergidən tam azad etməsi

**İzah:**

Testdə səhv fikirlər soruşulur.**I.**Qara Yusif Qaraqoyunlu dövlətini yaratsada sülalənin əsasını Bayram Xoca qoymuşdur. **II.** Uzun Həsən Qaraqoyunlu Cahanşahı məğlub edib XV əsrin 50-ci illərində Gürcüstanın şərqini tutdu. **III.** 1500-cü ildə baş verən Cabanı döyüşündə Şirvanşahları məğlub edəndə hələ şah deyildi. **IV.** III Fəribürzin hakimiyyəti xalq və ordu tərəfindən müdafiə olunurdu. **V.** Qazan xan ticarəti inkişaf etdirmək üçün vahid ölçü çəki sistemi yaratsada şəhər tacirlərini vergidən azad etməmişdir. Verilən

HƏDƏF KURSLARI

fikirlərdən **I. III** və **V** fikirlər səhvdir. Cavab **1,3,5**

**22. Xronoloji ardıcıllığı müəyyən edin:**
**1.** ABŞ-ın Birinci Dünya müharibəsinə qoşulması
**2.** Moskvada Ümumrusiya müsəlmanları qurultayının keçirilməsi
**3.**"Ədalət təşkilatı"nın yaradılması
**4.** Rusiyada bolşevik diktaturasının qurulması

**İzah:**

***Test*** xronoloji ardıcıllıq tipinə aiddir. **I.**1917-ci ilin apreli **II.**1917-ci ilin mayı **III.**1917-ci ilin martı **IV.**1917-ci ilin oktyabrına aid hadisələr verilmişdir. Cavab **3,1,2,4**

**23.Qafqaz Canişinliyinin fəaliyyət dövrünə *aid olanları* müəyyən edin:**
**1.**Rusiya ilə Osmanlı arasında rus hərbi gəmilərinin Bosfor və Dardanel boğazlarından keçmək hüququnu təsdiq edən müqavilənin imzalanması
**2.** Bakı, Quba və Gəncədə şəhər məhkəmələrinin fəaliyyətə başlaması
**3.**Azərbaycanda silki məhkəmələrin ləğv edilməsi
**4.** Zaqatala dairəsinin yaranması
**5.** Yelkənli hərbi donanma tarixində sonuncu döyüşün baş verməsi

**İzah:**

**Testdə** 1844-1883-cü ilərdə mövcud olan Qafqaz Canişinliyi dövrünə aid hadisələr soruşulur. **III.**1866-cı il **IV.**1860-cı il **V.**1853-cü ilə aid hadisələr olduğu üçün cavab **3,4,5-**dir.

**24. Uyğunluğu müəyyən edin:**
**1.** Ağ Hun dövləti
**2.** Qərbi Hun dövləti
**3.** Qaraxanlı dövləti
**a**. Hindistanın şimal-qərb torpaqlarını işğal etməsi
**b**.XII əsrin 40-cı illərində qarakitaylara tabe olması
**c**. Şərqi Roma ilə müqavilə imzalaması
**d**. Qərbdə sərhəd qonşusunun Sasani dövləti olması
**e**. İslam dinini qəbul etmiş ilk türk sülalələrindəndir

**İzah:**

Testdə Türk dövlətlərinə aid olanlar soruşulur. **I.** Ağ Hun dövləti Hindistanın şimal-qərb torpaqlarını işğal etmişdi. Qərbdə Sasani dövləti ilə qonşu idi. **II.**Qərbi Hun dövləti Attilanın dövründə Şərqi Roma ilə iki dəfə müqavilə imzalamışdır.**III.**Qaraxanlı dövləti İslam dinini qəbul etmiş, XII əsrin 40-cı illərində Qarakitaylara tabe olmuşdur. Cavab **1 A,D 2.C 3.B,E**

**25. Uyğunluğu müəyyən edin:**
**1.** "Əksinqilab ilə Mübarizə Təşkilatı"nın yaranması
**2.** Bakı komissarlarının həbs edilməsi
**3.** Hərbi tribunal və Fövqəladə Komissiyanın yaranması
**a.** Azərbaycan Xalq Cümhuriyyyətinin ikinci hökumət kabineti
**b.** "Sentrokaspi diktaturası"
**c.** Bakı Xalq Komissarları Soveti
**d.** Azərbaycan Xalq Cümhuriyyətinin dördüncü hökumət kabineti
**e.** Azərbaycan Xalq Cümhuriyyətinin birinci hökumət kabineti

**İzah:**

**1.**"Əksinqilab ilə Mübarizə Təşkilatı" 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin dördüncü hökümət kabineti tərəfindən yaranmışdır. **2.** Bakı Komissarları 1918-ci ildə "Sentrokaspi diktaturası" tərəfindən həbs edilmişdir. **3.**Hərbi tribunal və Fövqəladə

HƏDƏF KURSLARI

Komissiya 1918-ci ildə Bakı Xalq Komissarları tərəfindən yaradılmışdır. Cavab
**1D,2 B,3 C**

HƏDƏF KURSLARI